## *Gülbəniz BABAYEVA - 60*

# MOLLANƏSRƏDDİNÇİ ALİM



*Vüqar Əhməd*
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor, Turanın Xalq şairi***

Hər bir sənətkar yaşadığı cəmiyyətin ictimai- siyasi hadisələrini, insanının ideya-estetik görüşlərini yaratdığı əsərlərin mövzusuna çevirir. Bəşəriyyətin qlobal problemlərini, ümumilikdə insan-təbiət münasibətlərini, qayğılarını yazıçı yaratdığı əsərlərində təcəssüm etdirir. Azərbaycan ədəbiyyatımnda insan və zaman, tarix və şəxsiyyət, fərdin taleyi, insanın sevinci və faciələri yazıçı, şair, dramaturq qələmində çox böyük həssaslıqla öz bədii ifadəsini tapır. Ədəbiyyatımızda publisistikanın özünəməxsus yeri və mövqeyi izah etməyə elə bir ehtiyac yoxdur. Publisistika tarixinin araşdırması göstərir ki, onun inkişafında tənqidçi, filosof, tarixçi və ədəbiyyatşünasların xidmətləri böyük olmuşdur.

Tarixi təcrübə göstərir ki, publisistika yazıçıların yaradıcılığında əbədi bir forma kimi geniş yer almışdır. Publisistikada vətənpərvərlik, xalqlar dostluğu, qəhrəmanlıq, sədaqət, düşmənə qarşı amansız olmaq motivləri həmişə publisistin əsərlərinin əsas mündəricəsini təşkil etmişdir.

Vaxtilə Həsən bəy Zərdabidən başlayaraq Seyid Əzim Şirvani, Məhəmməd ağa Şahtaxtlı, Hacı Səid Ünsüzadə, Cəlal Ünsüzadə, Nəcəf bəy Vəzirov, Əhsənül Qəvaid, Əbdürrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Məhəmməd Əmin bəy Rəsulzadə, Nəriman Nərimanov, Firudin bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov, Cəfər Cabbarlı, Üzeyir bəy Hacıbəyli və onlarla digər ziyalılarımız publisistika sahəsində olduqca böyük işlər görmüş və xalqa bir sıra həqiqətləri məhz bu sahənin imkanları sayəsində çatdırmışlar.

Azərbaycanda publisistikanın elmi-nəzəri, təcrübi əsaslarını milli mətbuatımızın yaradıcısı Həsən bəy Zərdabi qoymuşdur. Lakin bədii publisistikaya məxsus elementlər klassik ədəbiyyatdan öz başlanğıcını götürür. Mövlanə Füzuliinin məşhur "Şikayətnamə" əsəri bunun bariz nümunəsidir.

Xaqani Şirvaninin, Nizami Gəncəvinin əsərlərində bədii publisistik ünsürlər mövcud olsa da, Azərbaycan bədii publisistikasının tarixi Məhəmməd Füzulinin "Şikayətnamə"si ilə bağlıdır. XVII əsrdə M.P.Vaqifin qoşmaları, XVIII-XIX əsr H.Z.Şirvaninin səyahətnamələri, XIX əsrdə İ.Qutqaşınlı, Q.Zakir, M.F.Axundzadənin əsərlərində publisistika yeni keyfiyyətlər qazanıb. 1875-ci ildə "Əkinçi" qəzetinin yaranması və Azərbaycan milli mətbuatının əsasının qoyulması ilə publisistika, eləcə də bədii publisistika yeni inkişaf mərhələsinə qədəm qoydu.

Tanınmış pedaqoq, ədəbiyyatşünas, mollanəsrəddinçi alim, Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəsəfə doktoru, Gülbəniz Babayeva da çağdaş dövrdə böyük ənənələrə dayanan Azərbaycan publisistika məktəbinin layiqli davamçılarından biridir. Tədqiqatçının "Molla Nəsrəddin" jurnalı və bu ədəbi məktəbin yaradıcıları haqqında yazdığı çoxsaylı məqalələri onun peşəkar bir publisist kimi formalaşdığını bir daha təsdiqləyir. Bu baxımdan alimin"- Molla Nəsrəddin" və Qarabağ mövzusu", "Molla Nəsrəddin" jurnalında erməni-müsəlman məsələləri", "Molla Nəsrəddin" jurnalı və Xalq Cümhuriyyəti", " Üzeyir bəy Hacıbəyli və "Molla Nəsrəddin"jurnalı", "Molla Nəsrəddin" və mollanəsrəddinçilər Məmməd Cəfər Cəfərovun tədqiqatlarında", "Çağdaş satirada "Molla Nəsrəddin ənənələri", "Klassik publisistika irsimizdən: "Molla Nəsrəddin"in hesab məsələləri", "Molla Nəsrəddin" jurnalında demokratik cümhuriyyət ideyaları", "Molla Nəsrəddin" publisistikası: janr və üslub rəngarəngliyi," "Satirik poeziyada elm və təhsil məsələləri", "Molla Nəsrəddin" jurnalında parodiya və perifrazlar","Molla Nəsrəddin" jurnalında işlədilən klassik şeir şəkilləri","Molla Nəsrəddin" jurnalında onomastik vahidlər" və s. məqalələrində XX əsrin mürəkkəb ictimai-siyasi hadisələri fonunda yaranan, formalaşan Azərbaycan realist ədəbiyyatının, satirik mətbuatın və xüsusilə də "Molla Nəsrəddin" jurnalının mövzu və problematikasında əksini tapan bütün məsələlər diqqət mərkəzində saxlanılır. G. Babayevanın bu sanballı elmi araşdırmaları ilə yanaşı, Azərbaycan ədəbi fikir tarixində, ədəbiyyatşünaslıq və publisistikamızın inkişafında müstəsna xidmətləri olan böyük alimlərimiz- professor Şirməmməd Hüseynovun çoxşaxəli yaradıcılığına həsr etdiyi "Şirməmməd Hüseynov- Böyük istiqlalçı alim", akademik İsa Həbibbəylinin fundamental araşdırmalarının təhlilini verən "Akademik İsa Həbibbəylinin "Mollanəsrəddinçilik təlimi konsepsiyası" və "Vaqifdən Vaqifliyə gedən yol" , AMEA- nın müxbir üzvü Təhsin Mütəllimovun 90 illik yubileyinə həsr etdiyi " Azərbaycan elminin mogikanı", tənqidçi, filologiya elmləri doktoru Vaqif Yusiflinin 70 illik yubileyi ilə bağlı qələmə aldığı " Sözün səsi- Zəmanənin Vaqifi" adlı portret- oçerk səciyyəli dəyərli məqalələri onun öz sələflərinin klassik üslubunu uğurla davam etdirən bir publisist kimi formalaşdığını göstərir.

Gülbəniz Babayevanın bir alim kimi yetişməsini, çoxcəhətli fəaliyyətini aydın təsəvvür etmək üçün bəzi məqamlara diqqət yetirmək yerinə düşər. O, 1980-1985-ci illərdə Gəncə Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir. 1988-1992-ci illərdə Bakı Dövlət Universitetinin aspiranturasında təhsil almışdır. 2004-cü ildə "Fərman Kərimzadənin yaradıcılıq yolu" adlı dissertasiya müdafiə etmiş, 2005-ci ildə filologiya üzrə fəlsəfə doktoru adına layiq görülmüşdür. G.Babayeva uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş, Bakı şəhəri Yasamal rayonundakı 21 saylı tam orta məktəbdə, Bakı Slavyan Universitetində və Azərbaycan Dillər Universitetində müəllim işləmişdir. 2012-ci ildə "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanına layiq görülmüşdür.

G.Babayeva "Molla Nəsrəddin" satirik jurnalı və mollanəsrəddinçilər - Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əli Razi və başqalarının ədəbi irsi ilə bağlı Azərbaycan dövri mətbuatında silsilə məqalələrlə çıxış edir, radio və televiziyada bu ədəbi məktəbin və onun fədakar nümayəndələrinin gördüyü böyük işlərdən söhbət açır. Onun bu istiqamətdə apardığı işlər təkcə respublika daxilində deyil, olkə hüdudlarından kənarda da uğurla həyata keçirilir. Ç. Babayeva ilk satirik mətbuatımız kimi Azərbaycan xalqının həyatında müstəsna rol oynayan "Molla Nəsrəddin" jurnalının, onun yaradıcılarının fəaliyyətini, eləcə də jurnalın türkdilli xalqların, o cümlədən İran, Türkiyə, tatar, Orta Asiya xalqlarının satirik mətbuatına təsirini ciddi elmi araşdırmaların mövzusuna çevirərək Rusiya, Ukrayna, İran,Türkiyə Özbəkistan, Qazaxıstan, Polşa və digər xarici ölkələrin nüfuzlu jurnallarında məqalələr dərc etdirir.

Gülbəniz Babayeva humanist, sədaqətli, incə ruhlu, duyğusal bir xanım və səmimi Azərbaycan qadınıdır. O, sözə qiymət verən, toxunduğu mövzulara həssaslıqla yanaşan, fərqli, həm də yadda qalan xarakterlər yaratmağı bacaran qələm sahibi, peşəkar ədəbiyyatşünas, bədii çalarlı publisistdir.

Gülbəniz Babayeva yaradıcılığın çətin, əzablı yollarında addımlayan, bu yolda yorulmayan, usanmayan fədakar bir sənətkardı. Bu da onun ciddi axtarışlara meyilli olmasından irəli gəlir. Bilmirəm, elmi araşdırmalara marağı əvvəl yaranıb, yoxsa ədəbiyyatşünaslığa, publisistikaya həvəsi erkən doğulub. Hər halda tədqiqatçı-publisistin yaradıcılığında filologiya ilə mətbuat məsələləri bir-biri ilə üzvi surətdə bağlıdır. Gülbəniz xanım cəsarətli publisistdir. O, hər zaman xalqın milli varlığını, kimliyimizi ifadə edən əsərləri arayıbaxtarır, onların ideya-nəzəri xüsusiyyətlərini açıqlayır. Böyük şəxsiyyətlərin ədəbi talelərindən bəhs edərkən onların həyatlarındakı önəmli faktları diqqət mərkəzində saxlayır, hadisələri düşüncəsində ipə-sapa düzərək sanballı bir süjet ətrafında təsvir edir. Elə yaradıcılıqda əsas meyar həm də budur.

Gülbəniz xanımın yaradıcılığının ana xəttini ədəbiyyatşünaslıq təşkil etsə də, bu yaradalıcılıqla birgə onun mövzu baxımından zəngin və aktual, sənətkarlıq baxımından müəkəmməl olan poetik- publisistik yaradıcılığı da diqqəti çəkir. O, səriştəli qələmilə elmi-bədii publisistikanın gözəl nümunələrini yaradır. Millətinin, ölkəsinin ağrı-acılarını, uğurlarını, sevincini, təəssürat və düşüncələrini bütün varlığı ilə yaşayır. Belə bir ədibin poeziya və publisistikaya müraciət etməsi çox təbiidir.

Çağdaş ədəbiyyatın tanınmış nümayəndələrindən biri - şair, publisist, pedaqoq, ədəbiyyatşünas, Gülbəniz Babayevanın rəngarəng, müxtəlif janrlı yaradıcılığı həmişə milli ideallarımızla sıx bağlı olmuş, dərin ictimai-siyasi məzmunu və sağlam vətəndaşlıq mövqeyi ilə seçilmişdir.

Gülbəniz xanımın bir insan və şəxsiyyət kimi ali keyfiyyətləri, milli, mənəvi-əxlaqi dəyərlərə bağlılığı, vətənpərvərliyi, insansevərliyi onun yaradıcılığına dərindən sirayət etmiş, əsərlərinin sosial-ictimai qayəsini, ideya mündəricəsini müəyyənləşdirmişdir. Vətənə, xalqa, millətə, dövlətçiliyə, milli soy-kökə bağlılıq onun yaradıcılığının hər nöqtəsində özünü büruzə verir. Tədqiqatçının publisistikası xalq, torpaq, vətən sevgisi ilə yoğrulub.

Gülbəniz Babayeva 2014-cü ildən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışır. O, həmin dövrdən "Molla Nəsrəddin" ensiklopediyası üçün sözlük hazırlamaqla məşğul olmuş və 2016-cı ildə işi başa çatdırmışdır. 2017-2018-ci illərdə isə şöbə əməkdaşları ilə birlikdə "Molla Nəsrəddin" ensiklopediyası"nın hazırlanmasında fəal iştirak etmişdir. Gülbəniz Babayeva akademik İsa Həbibbəylinin şəxsi təşəbbüsü və redaktorluğu ilə hazırlanan ensiklopediyanın məsul redaktoru, 73 məqalə və oçerkin müəllifidir. Bunlarla yanaşı, alimin müxtəlif nüfuzlu elmi jurnallarda 50-dən artıq məqaləsi işıq üzü görüb. Dövri mətbuatda isə müntəzəm olaraq öz publisistik yazıları ilə çıxış edir. Akademik İsa Həbibbəyli Gülbəniz Babayevanın "Molla Nəsrəddin" ensiklopediyası və mollanəsrəddinşünaslıqla bağlı fəaliyyətini dəyərləndirərək yazır: "Apardığı tədqiqatlar Gülbəniz Babayevanı "Molla Nəsrəddin" ensiklopediyası"nın əsas müəlliflərindən birinə çevirmişdir. Onun mövzu ilə əlaqədar arxivlərdən və XX əsrin əvvəlləri Azərbaycan mətbuatında üzə çıxardığı materiallar mollanəsrəddinşünaslığı zənginləşdirməyə xidmət edir. Bundan başqa, tədqiqat proseslərində təhlilləri və qiymətləndirmələrində azərbaycançılıq mövqeyindən çıxış etməsi, milli-mənəvi dəyərləri ön mövqeyə çəkməsi Gülbəniz Babayevaya mollanəsrəddinşünaslığın yeni dövrünün elmi sözünü demək üçün münasib şərait yaradır. G.Babayevanın tədqiqatları böyük elmi ənənələri olan Azərbaycan Mollanəsrəddinşünaslığının yeni dövrünün obyektiv elmi meyarlar əsasında yazılmış orijinal səhifələrini təşkil edir" (İsa Həbibbəyli. Ön söz: Mollanəsrəddinşünaslıqda yeni imza. Gülbəniz Babayeva. "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər. Bakı, "Elm", 2020). AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsində hazırlanan "Molla Nəsrəddin" ensiklopediyası" üç illik səmərəli axtarışların nəticəsi kimi ərsəyə gələn mükəmməl və monumental bir məcmuədir. Şöbə əməkdaşlarının tarixi materiallar, zəngin arxiv sənədləri, tədqiqat əsərləri, monoqrafiyalar, doktorluq və namizədlik işləri, salnamələr, memuarlar əsasında hazırladıqları ensiklopediya XX əsrin ictimai-siyasi, ədəbi-mədəni hadisələrini, mollanəsrəddinçilərin zəngin və çoxşaxəli yaradıcılığını, jurnalın çoxsaylı tədqiqatçılarının elmi fəaliyyətini özündə əks etdirən dəyərli sənət əsəridir.

*(Davamı 5-ci səhifədə)*

(Əvvəli 4-cü səhifədə)

Filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva jurnalda önəmli yer tutan "Atalar sözləri", "Bayatılar", "Nağıllar", "El ədəbiyyatı", "Tapmacalar", "Hikmətli sözlər", "Teleqraf xəbərləri", "Ticarət və ekonomi xəbərləri", "Daxili xəbərlər", "Xarici xəbərlər", "Qafqaz xəbərləri", "Mətbuat xəbərləri", "Elanlar" və s. çoxsaylı rubrikalarla yanaşı, həm də "Molla Nəsrəddin" ədəbi məktəbinin əsas yaradıcıları, mollanəsrəddinçi şair və yazıçılar, rəssamlar və bu irsin tədqiqatçıları haqqında yazdığı "Əbdürrəhim bəy Haqverdiyev", "İsmayıl Həqqi Həsənzadə", "Ömər Faiq Nemanzadə", "Əli Nəzmi", "Əli Razi Şamçızadə", "Hüseyn Minasazov", "Məhəmməd Tağı Sidqi", "Mirzə Əli Möcüz", "Mehdi Hüseyn", "Təhsin Mütəllimov", "Elmira Qasımova", "Hüseyn Əsgərov", "Allahverdi Məmmədli", "Mehriban Sultanova", "İman Cəfərli"; mollanəsrəddinçi rəssamlardan "Bəhruz Kəngərli", "Hüseyn Əliyev", "İsmayıl Axundov", "Konstantin Dorş", "Qəzənfər Xalıqov", "Seyidəli Behzad" və başqa portret oçerklərdə bir çox tarixi mənbələrə, arxiv sənədlərinə istinad edərək dərin elmi ümumiləşdirmələr əsasında maraqlı araşdırmalar aparmışdır. G. Babayevanın yüksək peşəkarlıqla yazdığı bu məqalələr ensiklopediyada xüsusi yer tutur.

Akademik İsa Həbibbəyli yazır: " Mətbuat tarixi və publisistika" şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayeva artıq müstəqillik dövrü Azərbaycan mollanəsrəddinşünaslığında yeni imza kimi tanınmışdır. Dövrü mətbuatda və elmi jurnallarda çap olunan məqalələri onun mollanəsrəddinşünaslığın fərqli qatlarını açmaq üçün yorulmadan elmi axtarışlar aparmaqda davam etdiyini aydın surətdə göstərir. doktorluq dissertasiyasının ilk məşqləri təəssüratı yaradır və mövzu ətrafında apardığı axtarışların əhatə dairəsini əyani şəkildə təsəvvür etməyə əsas verir. Hesab edirəm ki, bütövlükdə "Molla Nəsrəddin" jurnalı və milli ədəbi dəyərlər" monoqrafiyası Gülbəniz Babayevanı doktorluq dissertasiyası müdafiə etməsinə aparmaqdan daha çox onun mollanəsrəddinçiliyin müasir dvrdəki yeni azərbaycançı nəslinin layiqli nümayəndəsi, əsl təmsilçisi olmasını təsdiq etməyə xidmət edir. Monoqrafiyada və dövri mətbuatda çap olunmuş məqalələrdəki azərbaycançı elmi mövqe və yorulmaz axtarış ruhu Gülbəniz



# MOLLANƏSRƏDDİNÇİ ALİM

Molla Nəsrəddin Ensiklopediyası"nın hazırlanması Gülbəniz Babayevanın həm də mollanəsrəddinçiliklə əlaqədar doktorluq dissertasiyası üzərində çalışdığı üçün bir qədər də artıq səviyyədə Azərbaycan realist-satirik ədəbiyyatının bu ədəbi cəbhəsinin problemlərinə daha ardıcıl şəkildə və dərindən nüfuz etməsinə zəmin yaratmışdır. Apardığı tədqiqatlar Gülbəniz Babayevanı "Molla Nəsrəddin" ensiklopediyası"nın əsas müəlliflərindən birinə çevirmişdir."

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 03.07. 2019-cu il tarixli 6 saylı qərarı ilə Gülbəniz Babayevanın "Molla Nəsrəddin" jurnalı və ədəbi mənəvi dəyərlər" adlı monoqrafiyası işıq üzü görüb. Monoqrafiyada Azərbycan satirik mətbuatının inkişafında xüsusi bir mərhələ təşkil edən və ədəbi məktəb yaradan "Molla Nəsrəddin" jurnalının problematikası, klassik irsə və folklora yaradıcı münasibəti, çoxsaylı rubrikaları tədqiqata cəlb olunub. Monoqrafiyanın yüksək məziyyətlərindən söhbət açan professor Cahangir Məmmədli yazır:" Filologiya üzrə fəlsəfə doktoru Gülbəniz Babayevanın "Molla Nəsrəddin jurnalı və milli ədəbi dəyərlər" monoqrafiyası öz fundamentallığı ilə xüsusi yer tutur. Bu yerdə bizim işlətdiyimiz "fundamental" epiteti gəlişi gözəl söz olmayıb əsərin mahiyyətini ifadə edir. Belə ki, doqquz fəsildən ibarət bu əsər "Molla Nəsrəddin" jurnalının hərtərəfli tədqiqini özündə əks etdirir. Və bu fəsillərin hər biri klassik jurnalistikamızın çox mühüm nümunəsi olan bu jurnalı: 1. Onun yaradıcısı Cəlil Məmmədquluzadə fenomeni ilə birgə təhlil edir; 2. Zaman və məkan kontekstində aydınlaşdırır; 3. Jurnalın bütün fəaliyyətinin təhlillərində klassika və müasirlik kimi bu gün üçün çox vacib olan bir məqama xüsusi diqqət yetirir".

Akademik İsa Həbibbəyli monoqrafiyada jurnalın Türk dünyasında yayılmasının ön plana çəkilməsini tədqiqatçının uğuru kimi dəyərləndirərək yazır: "Molla Nəsrəddin" və türk dünyasında satitik mətbuat" məsələsinin ayrı bir fəsildə tədqiqata cəlb olunması Gülbəniz Babayevanın üzərində çalışdığı Babayevanın mollanəsrəddinşünaslıqda yeni imza olduğunu göstərir" (İsa Həbibbəyli).

G.Babayeva 2017-ci ildən AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun doktorantı olmuş, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə "Molla Nəsrəddin" və türk satirik mətbuatı" adlı doktorluq dissertasiyasını yazıb tamamlamışdır.Gülbəniz Babayevanın tədqiqat işi onun mollanəsrəddinşünaslıq istiqamətindəki axtarışlarını tamamlamağa və zənginlşdirməyə uğurla xidmət edir. Dissertasiyanın müzakirəsi yüksək səviyyədə keçirilib. İnanırıq ki, Gülbəniz xanım tezliklə layiq olduğu elmi dərəcəni alacaq. Gülbəniz xanım elmi və pedaqoji fəaliyyətlə yanaşı, həm də bədii yaradıcılıqla məşğul olur. Onun heca və sərbəst vəzndə yazdığı şeirləri AMEA-nın " Yaradıcılıq plyus", "Qoşa qanad" almanaxlarında və dövri mətbuatda dərc olunur. Gülbəniz Babayevanın şeirlərinin mövzusunu, əsasən Azərbaycan xalqının taleyi, onun füsünkar təbiəti, erməni cəlladlarının xalqımıza qarşı soyqırım siyasəti, Xocalı faciəsi, təbiət və cəmiyyət haqqında fəlsəfi düşüncələr, insani hiss və duyğuların tərcümanına çevrilən saf məhəbbətin tərənnümü və s.önəmli məsələlər təşkil edir.

G.Babayevanın "Molla Nəsrəddin" jurnalı ilə bağlı apardığı tədqiqatları və uğurlu elmi fəaliyyəti "Yeni yurd" Sosial İnkişaf İctimai Birliyi tərəfindən yüksək qiymətləndirilmişdir. O, 2017-ci ildə "Xurşidbanu Natəvan" mükafatına layiq görülmüşdür. 2018-ci ildə Azərbaycan Respublikası Avropa Nəşr Mətbuat Evinin Ən yaxşı vətənpərvər tədqiqatçı alim "Qızıl medal"ı ilə, bu günlərdə isə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəhbərliyi tərəfindən "Fəxri Fərman"la təltif olunub.

Yazıb- yaratmaqdan usanmayan ədəbiyyatşünas alim, publisist, poetik söz sahibi Gülbəniz xanım Babayevanı yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona uzun ömür, can sağlığı, çətin və şərəfli işində yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!..